# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# S Ə R Ə N C A M I

**Bakı şəhəri** **№ 1/51** **22 noyabr 2016-cı il**

**“Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017-2019-cu illər üçün Milli Fəaliyyət Planı”nında Azərbaycan Respublikasının Auditorlar Palatasına icrasının təmin edilməsi tövsiyə olunan tədbirlərin həyata keçirilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin ““Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017-2019-cu illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında” 2016-cı il 18 noyabr tarixli 2451 nömrəli sərəncamının icrasını təmin etmək məqsədilə

**QƏRARA ALIRAM:**

1. “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017-2019-cu illər üçün Milli Fəaliyyət Planı”nında Auditorlar Palatasına icrasının təmin olunması tövsiyə edilən tədbirlərin həyata keçirilməsi məqsədilə aşağıdakı tərkibdə İşçi qrupu yaradılsın:

**İşçi qrupunun rəhbəri:**

Bayramov Qəşəm - Auditorlar Palatası Aparatının rəhbəri;

**İşçi qrupu rəhbərinin müavini:**

Abbasov Maarif - Auditin hüquqi təminatı və standartlaşdırma idarəsinin rəisi;

**İşçi qrupunun üzvləri:**

Talıbov Nəcəf - Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri;
Gülməmmədov Səbuhi - Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi;
İbrahimov Elnur - Qanunvericilik və hüquqi məsələlər üzrə Komitənin sədri;
Qurbanov Abbasəli - Auditorların İxtisasartırma komitəsinin sədri;
Kərimov Natiq - İnformasiya və mətbuat üzrə Komitənin sədri;
Cəfərov Altay - Auditorlar Palatası Şurasının üzvü, sərbəst auditor;
Kərimov Vəli - sərbəst auditor;
Axundov Nazim - sərbəst auditor.

2. İşçi qrupuna tapşırılsın ki, 5 (beş) iş günü müddətində “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017-2019-cu illər üçün Milli Fəaliyyət Planı”nda nəzərdə tutulmuş işlərin icrasını təmin etmək məqsədilə Tədbirlər Planını işləyib təqdim etsinlər;
3. Bu sərəncamın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**PALATANIN SƏDRİ** **V.NOVRUZOV**